# AZƏRBAYCAN TURİZM VƏ MENECMENT UNİVERSİTETİNDƏ ÜMUMİ ƏRAZİLƏRDƏN İSTİFADƏ QAYDALARI

## I.Ümumi müddəalar

1.1. Azərbaycan Turizm və Menecment Universitetində (bundan sonra, ATMU) Ümumi ərazilərdən istifadə qaydaları təhsilalanlar, əməkdaşlar, qonaqlar üçün ictimai ərazilərdən istifadəni tənzimləməklə qaydalara əməl edilməsini nəzərdə tutur.

1.2. Qaydaların hazırlanmasında ATMU-nun "Azərbaycan Turizm və Menecment Universitetində təhsilalanların etik davranış" Kodeksi əsas götürülmüşdür.

1.3. Qaydalar ATMU ictimaiyyətində rastlanan çatışmazlıqlar nəzərə alınmaqla Xidmət şöbəsi tərəfindən hazırlanmışdır.

## I. Ümumi istifadədə olan ərazilərdən istifadə qaydalarının əsas məqsədi

2.1. Cari qaydaların yaradılmasında məqsəd ATMU ictimaiyyətinin, o cümlədən, təhsilalanlar, əməkdaşlar və qonaqların ictimai-sosial davranış normalarına əməl etməsinə, eləcə də ümumi ərazilərdən istifadə edərkən onların qorunmasına, uzunmüddətli istifadəsinə şərait yaratmasına və hər kəsin bir-birinə etik davranış normaları çərçivəsində münasibət göstərməsinə nail olmaqdır.

## II. Ümumi istifadədə olan ərazilər

**2.1.** ATMU-da ümumi istifadədə olan ərazilər aşağıdakılardır:

a) Kitabxana-informasiya mərkəzi / Dil mərkəzi
b) Auditoriyalar
c) Akt zalı / Heydər Əliyev lektoriyası
d) Bufet
e) Sanitar-qovşaq
f) Həyətyanı sahə

## III. Ümumi ərazilərdən istifadə qaydaları

**3.1.** ATMU-da Kiitabxana-İnformasiya Mərkəzi / Dil mərkəzində olarkən və ya oranı tərk etdikdə təhsilalan, əməkdaş və qonaqların əməl etməli olduqları qaydalar aşağıdakılardır:

a) Kitabxana-İnformasiya Mərkəzi/Dil Mərkəzindən istifadə “Kitabxadan istifadə qaydaları” ilə tənzimlənir. ATMU-nun rəsmi veb səhifəsinə keçid etməklə həmin qaydalarla tanış olmaq olar

**3.2.** ATMU-da auditoriyalarda olarkən və ya oranı tərk etdikdə təhsilalan, əməkdaş və qonaqların əməl etməli olduqları qaydalar aşağıdakılardır:

**a)** Auditoriyanı tərk edərkən lövhədəki yazıların silinməsi;

**b)** Auditoriyanı tərk edərkən, eləcə də, ehtiyac olmadıqda işıqların söndürülməsi;

**c)** Auditoriyanı tərk edərkən açıq pəncərələrin örtülməsi;

**d)** Auditoriyada olarkən və ya tərk edərkən tullantıların zibil qutusuna atılması;

**e)** Auditoriyanı tərk edərkən oturacaq və masaların səliqəli düzülməsi, onların üzərlərinin yazılmaması;

**f)** Auditoriyada olarkən avadanlıqların təhlükəsiz və səliqəli istifadəsi;

**g)** Auditoriyanı tərk edərkən proyektorun söndürülməsi;

**h)** Auditoriyanı tərk edərkən bütün avadanlıqların elektrik yuvasından çıxarılması;

**i)** İstifadə üçün müvafiq strukturdan götürülən noutbuk və proyektorun pultunun geri təhvil verilməsi.

**3.3.** ATMU-da akt zalı / Heydər Əliyev lektoriyasında olarkən və ya oranı tərk etdikdə təhsilalan, əməkdaş və qonaqların əməl etməli olduqları qaydalar aşağıdakılardır:

a) ATMU-nun akt zalı II tədris binasının III mərtəbəsində yerləşir. Kütləvi tədbirlərin keçirilməsi ilə yanaşı, ehtiyac olduqda imtahan zalı kimi də istifadə edilir;

b) Heydər Əliyev lektoriyası əsas tədris binasının II mərtəbəsində yerləşir, tədbirlərin, o cümlədən iclas və toplantıların keçirilməsi üçün istifadə edilir;

c) Hər iki zalda mövcud avadanlıqlardan səliqəli, zərər vermədən istifadə edilməsi;

d) Zalı tərk edərkən məsul şəxsin elektrik avadanlıqlarını qovşaqdan ayırması;

e) Zalı tərk edərkən buraya gətirilən əlavə bütün avadanlıqların götürülməsi, masa və stulların düzülməsi ilə zalın səliqəli təhvil verilməsi;

f) Zalı tərk edərkən tullantıların zibil qutusuna atılması;

g) Zalı tərk edərkən pəncərələrin örtülüb, işıqların söndürülməsi.

**3.4.** ATMU-da bufetdə olarkən və ya oranı tərk etdikdə təhsilalan, əməkdaş və qonaqların əməl etməli olduqları qaydalar aşağıdakılardır:

a) Bufetdə oturacaq və masaların səliqəli qalmasına diqqət edilməsi;

b) Yemək yedikdən sonra qabların təhvil verilməsi;
c) Bufeti tərk edərkən tullantıların zibil qutusuna atılması;
d) Söhbət edərkən yüksək səslə danışıb başqalarının narahatlığına səbəb olunmaması;
e) Bufet və ATMU daxilində yemək apararkən dağılmamasına diqqət edilməsi;
f) Yemək alarkən növbənin gözlənilməsi.

**3.5.** ATMU-da sanitar-qovşaqda olarkən və ya oranı tərk etdikdə təhsilalan, əməkdaş və qonaqların əməl etməli olduqları qaydalar aşağıdakılardır:

a) İstifadədən sonra suyun bağlanılması;
b) Tullantıların zibil qutusuna atılması;
c) Əlüzyuyan və unitazlardan istifadədən sonra suyun çəkilməsi;
d) Kosmetik vasitələrin divarlara sıçramasının qarşısının alınması;
e) Mayelərin zibil qutusuna tökülməməsinə diqqət edilməsi;
f) Əşyaların unudulmaması;
g) Yemək qalıqlarının pəncərəyə qoyulmaması;
h) Sanitar-qovşağı tərk edərkən qapının örtülməsi.

**3.6.** ATMU-da həyətyanı sahədə olarkən və ya oranı tərk etdikdə təhsilalan, əməkdaş və qonaqların əməl etməli olduqları qaydalar aşağıdakılardır:

a) Həyətyanı sahədə istirahət üçün ayrılan ərazilərin təmizliyinə diqqət edilməsi, tullantıların zibil qutularında atılması;
b) Həyətyanı sahədə oturacaqların qorunmasına diqqət edilməsi;
c) Həyətyanı sahədə divar və ya oturacaqların yazılmaması/rənglənməməsi;
d) Həyətyanı yaşıl ərazilərin təmizliyinə riayət edilməsi və ağacların, güllərin qoparılmaması.

## IV.Ümumi ərazilərdən istifadədə intizam məsulliyyətinə cəlb olunma

**4.1.** Cari qaydalar bütün struktur əməkdaşlarına, o cümlədən professor-müəllim heyətinə, təhsilalanlara və ATMU-da qonaq olan şəxslərə aid edilir.

**4.2.** Qaydalara əməl edilməsi həmin ərazilərdən istifadə edən hər bir şəxsin öhdəliyidir.

**4.3.** Qaydalara əməl etməyən şəxslər “Azərbaycan Turizm və Menecment Universitetində təhsilalanların etik davranış” Kodeksində nəzərdə tutulan intizam tənbehi tədbirlərə cəlb edilirlər.

**4.4.** Adıçəkilən sənəddə göstərilən intizam tənbehlərinə xəbərdalıq, töhmət, sonuncu xəbərdarlıqla şiddətli töhmət, tədris prosesindən bir və ya bir neçə semestr kənarlaşdırılması, habelə Qanunvericiliklə nəzərdə tutulan hallarda ATMU-dan xaric edilmə aiddir.

**4.5.** "Azərbaycan Turizm və Menecment Universitetində təhsilalanların etik davranış" Kodeksinə əsasən ATMU-da siqaret çəkilməsi üçün xüsusi olaraq yaradılmış guşələr istisna olmaqla digər yerlərdə siqaret çəkmək qadağandır.

## V. Yekun müddəalar

**5.1.** Bu qaydalar ATMU-nun Elmi Şurasının Qərarı ilə rektor tərəfindən təsdiq edilir.

**5.2.** Qaydalara əlavə və dəyişikliklər ATMU-nun Elmi Şurasının Qərarı ilə rektorun təsdiqi əsasında edilir.

**5.3.** Qaydalarda nəzərdə tutulmayan məsələlər qanunvericiliklə və ATMU-nun Nizamnaməsi ilə tənzimlənir.

**5.4.** Azərbaycan Respublikasının Qanunvericiliyi, ATMU-nun Nizamnaməsi ilə bu qaydaların müddəaları arasında ziddiyyət yaranarsa, birincilər üstün hüquqi qüvvəyə malikdirlər.